**Azərbaycan Respublikası Prezidentinin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə" 2013-cü il 24 iyun tarixli 2966 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi haqqında" 2014-cü il 14 fevral tarixli 273 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" 2014-cü il 29 dekabr tarixli 966 nömrəli, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında" 2015-ci il 19 yanvar tarixli 995 nömrəli, "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokolun təsdiq edilməsi haqqında" 2015-ci il 22 may tarixli 1243 nömrəli və "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyun tarixli 119 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 iyun tarixli 2966 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, 6, maddə 704; 2014, 9, maddə 1027; 2016, 2 (II kitab), maddə 334, 9, maddə 1470; 2017, 3, maddə 353, 8, maddə 1521; 2019, 2, maddə 256) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013–2018-ci illər üçün Dövlət Proqramı"nın 4.4.30-cu və 4.4.32-ci yarımbəndlərinin "İcraçı orqanlar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 2, maddə 161; 2020 8, maddə 1064) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın 6-cı hissəsinin beşinci abzasından "və Turizm" sözləri çıxarılsın.

**3.** "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Macarıstanın Milli İqtisadiyyat Nazirliyi arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 29 dekabr tarixli 966 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, 12, maddə 1640) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 1, maddə 39; 2016, 8, maddə 1384, 9, maddə 1470; 2017, 5, maddə 802, 8, maddə 1521; 2019, 3, maddə 443, 5, maddə 899, 11, maddə 1719; 2020, 2020-ci il, 8, maddə 1064) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı"nın 1.3-cü bəndinin "İcraçılar" sütunundan "və Turizm" sözləri çıxarılsın.

**5.** "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Bolqarıstan Respublikasının Turizm Nazirliyi arasında turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə dair Protokolun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 22 may tarixli 1243 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 5, maddə 601) 2-ci hissəsində "Mədəniyyət və Turizm Nazirliyi" sözləri "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin.

**6.** "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 sentyabr tarixli 1401 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 9, maddə 1043; 2016, 2 (II kitab), maddə 344; 2020, 5, maddə 602) aşağıdakı dəyişikliklər edilsin;

6.1. 1-ci hissədə və 3.2-ci bənddə ismin müvafiq hallarında "Mədəniyyət və Turizm Nazirliyi" sözləri ismin müvafiq hallarında "Dövlət Turizm Agentliyi" sözləri ilə əvəz edilsin;

6.2. 2-ci hissədən "və Turizm" sözləri çıxarılsın;

6.3. 3.3-cü bənddə "Əmlak Məsələləri Dövlət Komitəsinə" sözləri "İqtisadiyyat Nazirliyinə" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 yanvar 2021-ci il
2464